**Zəngin tarixi keçmişimizdən tutmuş bugünkü tariximizə qədər gənc nəslə örnək olası kifayət qədər qəhrəmanlıq səhifələrimiz var. Vətəni sevmədən, qorumadan, ata-babalarımızın qəhrəmanlıq nümunələrini öyrətmədən vətənpərvər yetişdirmək olmaz. Gənclərimizi Koroğlu, Babək, Cavanşir, Mübariz və s. ruhunda tərbiyələndirmək bizim əsas vəzifəmizdir. Onların fərəhi bizim fərəhimiz, kədəri isə bizim kədərimizdir.**

**Vətənpərvərlik ən ülvi bir hissdir.Vətən uğrunda canından keçən qəhrəmanlar əbədi bir həyata qovuşub, şərəfli şəhid adı qazanıblar. Vətənin qəhrəman övladları doğma yurda sədaqət rəmzi, məhəbbət simvoludurlar. Onlar üçün Vətən sevgisi hər şeydən öndə gəlir. Çünki Vətən sevgisi ən uca sevgidir. Vətən üçün döyüşmək də Vətənə olan sevginin bir təzahürüdür.**



# Qəhrəmanlar doğma yurda sədaqət rəmzi, məhəbbət simvoludur

Vətən uğrunda hər cür fədakarlığa hər zaman hazır olmaq lazımdır. Odlar Yurdunun mərd, mübariz oğulları daima Vətən torpağı uğrunda vuruşub, onun bölünməzliyi uğrunda canlarını qurban veriblər.

Müharibə minlərlə insanları evsizeşiksiz qoyan faciədir. Dünya xalqlarının içərisində faciələrə və zülmətə ən çox məruz qalan xalqlardan, bəlkə də birincisi Azərbaycan xalqı olub. Xalqımız illərlə, əsrlərlə fiziki və mənəvi genosidə məruz qalıb, ədalətsizliyin qurbanı olub.

1941-1945-ci illərin amansız döyüşlərində də minlərlə soydaşlarımız faşizm üzərində qələbə naminə canını fəda edib. İkinci Cahan savaşında Azərbaycan xalqının göstərdiyi qəhrəmanlıq və fədakarlıq unudulmazdır. Hər bir qəhrəmanın həyatı, onların öz vətəninə, xalqına olan sonsuz sevgisi, bağlılığı, gələcək nəsillərə örnəkdir. Müharibə dövründə yüz minlərlə azərbaycanlı cəbhəyə gedərək öz canları və qanları ilə Böyük Vətən müharibəsinin qələbəsinə töhfə verib.

Qələbənin qazanılmasında azərbaycanlı döyüşçülərin cəbhədəki rəşadəti ilə yanaşı, Bakı neftinin strateji əhəmiyyəti də həlledici rol oynayıb.

Böyük Vətən Müharibəsində al qanı ilə tarix yazan igid oğullarımızdan biri də Sovet İttifaqı Qəhrəmanı general-mayor Xəlil Məmməd oğlu Məmmədovdur.

General-mayor Xəlil Məmmədov 1916-cı il mayın 5-də Qarabağın incisi olan Şuşa şəhərində dünyaya göz açıb. Onun Şuşada doğulması həyatında xüsusi əhəmiyyət daşıyıb.

Xəlil Məmmədovun həyat yolu çox keşməkeşli olub. O, Sənaye texnikumunu bitirdikdən sonra, 1938-ci ildə Şuşa RHK-dan orduya çağırılıb. İkinci Dünya Müharibəsi başlayan zamanı öncə Qafqaz cəbhəsinə göndərilib.

Cəbhənin canlı əfsanəsi Xəlil Məmmədov müharibə illərində sıravi tankçılıqdan mayor rütbəsinə qədər yüksələrək Krım və Ukrayna istiqamətlərində gedən döyüşlərdə yaxından iştirak edib. Daha sonra isə tank taboru komandiri vəzifəsinə yüksəlib. Qısa müddət ərzində döyüş şəraitində hərb sənətinin bütün incəliklərini mənimsəyən qorxmaz azərbaycanlı 1942-ci ilin dekabr ayında göstərdiyi şücaətə görə "Qırmızı ulduz" ordeni ilə təltif edilib. Hərbi tapşırıqları yüksək peşəkarlıqla icra edən tabor komandiri, komandanlığın xüsusi diqqətini cəlb edərək bir il tamam olmamış yenidən "Qırmızı Ulduz" ordeni ilə mükafatlandırılıb. Belə bir qəhrəmanın döyüşlərdə göstərdiyi fədakarlıq və igidlik Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsinə töhfə idi. General-mayorun həyat yolu və müharibə dövründəki qəhrəmanlığı Azərbaycanın qəhrəmanlıq tarixinin əvəzsiz səhifələrindən birini təşkil edir.

Döyüşlərin ən şiddətli vaxtında Xəlil Məmmədovun taboru Cənub-Qərb cəbhəsinə göndərilir. Zaporojye şəhərinin mühasirə həlqəsini cənubdan yarmaq kimi çətin bir missiyanı zəfərlə başa vuran komandir, bu qəhrəmanlığına görə "Aleksandr Nevski" ordeni ilə təltif edilir.

Ukraynanın işğaldan azad edilməsi zamanı ən ağır döyüşlərdə fədakarlıq edən Xəlil Məmmədovun sonrakı döyüş yolları Macarıstan, Yuqoslaviya, Çexoslovakiya, Rumıniyadan keçib. Xəlil Məmmədov Rumıniyanın Tırqu Frumos şəhərinin işğalçılardan azad edilməsi zamanı düşmənə zərbələr endirərək xüsusi qəhrəmanlıq göstərib. Məğlubedilməz komandir Xəlil Məmmədov bu əməliyyatda yaralanmasına baxmayaraq, döyüşləri davam etdirir. Döyüş yoldaşları onu "məğlubedilməz Məmmədov", "amansız döyüşçü", "gecə hücumlarının ustası" adlandırıb. Mayor Məmmədovun taboru 15 gün ərzində Rumıniya torpaqlarında düşmənin 4 tankını, 2 özüyeriyən topunu, 64 artilleriya silahını, 191 müxtəlif təyinatlı avtomobilini, 108 pulemyotunu, 1375 alman əsgəri və zabitini məhv edib, həmçinin 3 dəmiryolu eşalonunundan 4 minə yaxın alman əsgəri və zabitini ələ keçirib. Onun uğurlu əməliyyatı Moskvada, SSRİ Silahlı Qüvvələrinin Baş Qərargahında da böyük müzakirəyə səbəb olur. O, xüsusi döyüş bacarığı və liderlik keyfiyyətləri ilə Azərbaycanın milli qürurunu, kimliyini tanıtdırır.

Bundan sonra Xəlil Məmmədovun taboru Macarıstanda qərarlaşıb. Növbəti əməliyyatlara hazırlaşan zaman səhra poçtalyonu ona xüsusi zərf təqdim edir. Komandir zərfin "məxfi" möhürlü olduğunu görəndən sonra məktubu müavininə istiqamətləndirir. Zərfdə isə Xəlil Məmmədova Sovet İttifaqı Qəhrəmanı adının verilməsi ilə bağlı fərmanı var idi. Xəlil Məmməd oğlu Məmmədova 24 mart 1945-ci il tarixli fərman ilə Sovet İttifaqı Qəhrəmanı adı verilir. Xəlil Məmmədov müharibə dövründə öz hünəri və igidliyi ilə qəhrəmanlıq nümunəsinə çevrilir.

Azərbaycanın vətənpərvər oğlu Xəlil Məmmədov "Berlinin alınmasına görə", "Vyananın alınmasına görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə, Qırmızı Ulduz (iki dəfə), Aleksandr Nevski, Lenin, 1-ci dərəcəli Vətən müharibəsi və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif olunur.

İkinci Dünya Müharibəsindən sonra ehtiyatda olan mayor Xəlil Məmmədov partiya orqanlarında çalışır. Xəlil Məmmədov gənclik illərində çalışqan və iradəli bir insan kimi tanınıb. O, 1946-cı ildə Bakının Əzizbəyov rayon Partiya Komitəsinin 1-ci katibi vəzifəsini icra edib, 1955-ci ildə isə Sov.İKP MK yanında Ali Partiya Məktəbini bitirib. Xəlil Məmmədov 1957-ci ildə əvvəlcə daxili işlər nazirinin müavini, daha sonra 1-ci müavin, 1960-cı ildə isə daxili işlər naziri vəzifəsinə təyin edildikdən sonra ona general-mayor rütbəsi verilir. 1965-ci ildən Xəlil Məmmədov Nazirlər Sovetinin sovet orqanları şöbəsinə rəhbərlik edib, 1971-1974-cü illərdə isə Azərbaycan İdman və Bədən Tərbiyəsi Dövlət Komitəsinin sədri vəzifəsində işləyib. Odlar Yurdunun qəhrəman övladı Xəlil Məmmədov harada işləməsindən asılı olmayaraq, hər zaman böyük hörmət qazanıb.

Vətənin igid oğlu, Sovet İttifaqı Qəhrəmanı, general-mayor Xəlil Məmmədov 1989-cu il fevralın 21-də vəfat edib. Xəlil Məmmədov Bakı şəhərindəki II Fəxri Xiyabanda dəfn edilib.

Əfsanəvi qəhrəman Xəlil Məmmədovun adı doğma Şuşa şəhərində əbədiləşdirilib. Şuşa tarixi baxımdan Azərbaycanın ən mühüm şəhərlərindən biri hesab olunur. Qarabağın incisi olan Şuşa şəhəri tarixi və mədəni əhəmiyyəti ilə yanaşı, Azərbaycanın qəhrəmanlıq tarixinin mühüm bir mərkəzidir. Xəlil Məmmədov kimi qəhrəmanların adlarının bu şəhərdə əbədiləşdirilməsi, milli yaddaşın qorunması və gələcək nəsillərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük rol oynayıb.

44 günlük Vətən müharibəsində Şuşa uğrunda savaşlarda şücaət göstərərək şəhidlik zirvəsinə ucalan Albert Aqarunov, Ramiz Məmmədzadə kimi milli qəhrəmanların intiqamı döyüş meydanında alındı. Qarabağın xilaskarı kimi tarix yazan, Azərbaycan bayrağını Şuşa qalasından asan cəsur döyüşçülər Vətən müharibəsində sübut etdilər ki, onlar Şuşanın əyilməz oğlu Xəlil Məmmədov kimi qəhrəmanların yetirmələridir.

Vətən sevdalı Xəlil Məmmədov kimi qəhrəmanların xatirəsi hər zaman Azərbaycan dövləti tərəfindən xüsusi qiymətləndirilir və yüksək hörmətlə yad edilir.

Ulu Öndər Heydər Əliyevin "Gənclər bilməlidir ki, 1941-1945-ci illər müharibəsində - dünya tarixinin ən dəhşətli müharibəsində Azərbaycan xalqının qəhrəmanlıq göstərən generalları, zabitləri, sıraviləri olmuşdur. Onlar öz qəhrəmanlığı ilə xalqımızın hörmətini qazanmış, Azərbaycan xalqını dünyada tanıtmışdır. Bunların hamısı gənc nəslimiz üçün örnəkdir".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi milli vətənpərvərlik ənənələrini davam etdirərək, Sovet İttifaqı Qəhrəmanlarının xatirəsini ehtiramla yad edir və müharibənin od-alovlarından keçmiş veteranlara hər zaman diqqətlə yanaşır. Bu ənənə Azərbaycanın müstəqilliyi və xalqın milli mənlik hissinin güclənməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu tarix təkcə bir xalqın şərəfini deyil, bütün insanlığın azadlıq və ədalət uğrunda mübarizəsini təmsil edir. Ümummilli Liderin vurğuladığı kimi, gənclər bu qəhrəmanlıq ənənələrini özlərində yaşatmalı, onların mirasını qorumağa çalışmalıdırlar.

**BİZ ŞANLI TARİXİMİZLƏ, ƏFSANƏVİ QƏHRƏMANLARIMIZLA HƏMİŞƏ FƏXR EDİRİK!**

*Gülnar BƏŞİROVA*
*AMEA-nın dissertantı,*
*Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi*